**UOT 82-31**

# SÜRGÜNDƏ QADIN PROBLEMİ
## *(G.Yaxinanın "Züleyxa gözlərini açır" romanı əsasında)*

**Aynur TAĞIYEVA** *

Məqalə redaksiyaya daxil olmuşdur: 24 aprel 2025; çapa qəbul edilmişdir: 15 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 24th of April, 2025; accepted: 15th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *sürgün, qadın problemi, G.Yaxina, "Züleyxa gözlərini açır"*

### Giriş

Müxtəlif dövrlərdə insanlar siyasi, iqtisadi və psixoloji səbəblərdən öz yaşadıqları ərazilərdən köç etmişlər. Bu köçkünlüklərin bir qismi könüllü olmuşdur; fərdlər öz iradəsi əsasında ya yaşadıqları travmalardan qurtulmaq, ya da daha yaxşı həyat şəraiti qurmaq üçün köçürdülər. Məcburi köçlər isə insanların iradəsindən asılı olmayaraq, zorla həyata keçirilmişdir. Bu zaman həmin şəxslər öz evlərindən, dədə-baba yurdlarından, doğma vətənlərindən ayrılmaq məcburiyyətində qalmışlar. Bu tipli köçürmə prosesləri əsasən cəza xarakterli olmaqla, ayrı-ayrı tarixi dövrlərdə fərqli siyasi səbəblərdən həyata keçirilmişdir. Bu cür sürgünlər könüllü köçlərdən fərqli olaraq, insanların öz iradəsindən asılı olmadan, verilən müxtəlif fərman və qərarların əsasında həyata keçirilirdi.

Deportasiya və köçlərlə bağlı sıxlıqla istifadə olunan sürgün anlayışı da məhz cəzalandırmaq məzmununu ifadə edir. Belə ki, yaranışı insanlığın başlanğıc dövrünə təsadüf edən sürgün motivinə ilk olaraq Adəm və Həvvanın nəfsə aldanması ilə cənnətdən yer üzünə sürgün edilməsi şəklində rast gəlinmişdir.

Daha sonrakı dövrlərdə isə aparılan müharibələr nəticəsində verilən qərarlar və siyasi xarakterli fərmanlar nəticəsində bir çox xalqın nümayəndələri sürgünlərə məruz qalmışdır. Ahıska türkləri, tatarlar və s. kimi xalqlar eyni taleləri yaşamış xalqlardır.

### 1. Sürgün prosesinin tarixi və sosial məzmunu

"Sovet İttifaqında ilk dəfə 1931-ci il fevralın 1-də SSRİ Mərkəzi Ali Sovetin İcraiyyə Komitəsi və Rəyasət Heyəti tərəfindən verilmiş fərman ilə "Kulak" adlanan varlı mülkədarlar bu təcrübəyə məruz qalırdılar. Deportasiya prosesi əsasən 1933-cü ildə tamamlanan zaman kulakların ümumi sayı 1.317.000 nəfər idi. Onların arasında, məsələn, Ukraynadan 63 720 ailə, Şimali Qafqazdan 38 404 ailə, Moskvadan 10 813 ailə, Qərbi Sibirdən 52 091 ailə, Krımdan isə 4325 ailə sürgün edilib.

İkinci Dünya Müharibəsinin əvvəlində sürgündə olan kulakların sayı 930.220 nəfər idi. 1945-ci il oktyabrın 1-də bu rəqəm 606.800-ə qədər azaldı. Beləliklə, son 15 ildə sürgün edilənlərin yarısı həyatını itirdi.

Sovet İttifaqının Uzaq Şərqində, Dalnıy Vostokda (Buryat-Monqol MSSR, Xaba-

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* aynur24tagiyeva@.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.032**

rovsk, Primorsk və Çitinsk vilayətləri) yaşayan sovet vətəndaşı olan koreyalılar da 1937-ci ildə deportasiyaya məruz qaldılar və Özbəkistan və Qazaxıstana göndərildilər" [4, s. 43].

"Çeçen-İnquş MSSR-də yaşayan çeçen və inquşlar da sürgün edildi. Onlar Stalinin çılğınlığının pəncəsindən xilas ola bilmədilər. Stalin tərəfindən, xüsusən də İkinci Dünya Müharibəsi zamanı və ondan sonra həyata keçirilən deportasiya siyasəti ümumiyyətlə alman işğalçıları ilə ən çox əməkdaşlıq edən və ya onlara ən az müqavimət göstərən icmalara tətbiq olunmuşdu" [4, s. 44].

Bu zaman sürgün cəzasına məhkum edilmiş on minlərlə insan məcburi şəkildə öz doğma vətənlərindən ayrılaraq, çox uzaq və sərt coğrafiyalara malik ərazilərdə yerləşən əsir düşərgələrində qeyri-insani rəftar və dəhşətli işgəncələrə məruz qalmışlar. İnsanlara evlərini tərk etmək üçün çox qısa müddət, hətta bəzən 10-15 dəqiqə vaxt ərzində özləri ilə çox az əşyanın götürülməsinə icazə verilirdi. Bu zaman isə yanlarına etnik ünsürləri olan heç bir əşyanın götürülməsinə icazə verilmirdi. Bundan əlavə, onlara aid bütün əmlaklar müsadirə olunurdu.

Daha sonrakı zaman kəsiyində isə məşəqqətli sürgün yolu başlamış olurdu. Sürgün düşərgələrinə məhbuslar aparılarkən sərnişin istifadəsi üçün nəzərdə tutulmayan, heyvan və müxtəlif yüklərin daşınması üçün ayrılmış vaqonlarda qaranlıq, ac və soyuq şəraitdə, əlli əvəzinə iki yüz insan zorla mindirilərək daşınırdı. Əlverişsiz şəraitdə insanlar sürgün düşərgələrinə gedən yol boyunca aclıq və yoluxucu xəstəliklər səbəbindən dünyalarını dəyişirdilər.

Yol boyunca bu şəraitə dözə bilməyən insanlar öldüyü zaman dəfn edilmədən sadəcə yol kənarlarına atılırdı. Qaçıb canını qurtarmaq üçün vaqonlardan müxtəlif yollarla çıxanların taleyi isə qaranlıq olaraq qalırdı. Bu sadalanan səbəblərdən dolayı qatar reysləri sürgün düşərgələrinə çatdığı zaman məhbusların sayı təxminən əlli faiz azalmış olurdu. Sağ qalmağı bacaran insanlar içərisində isə çox az hissə sağlam şəkildə düşərgəyə çata bilirdi. Digərləri isə qısa müddət ərzində sürgün yerlərindəki ağır rejimə dözə bilməyib ölürdü.

Sürgün olunmuş insanların olduğu düşərgələr fərqli formalarda və müxtəlif məqsədlər həyata keçirmək üçün yaradılmışdır. Məsələn, bəzi koloniyalar qaz kameraları və güllələnmə otaqları ilə təchiz olunmuşdur. Bura ölüm cəzasına məhkum olunmuş məhbuslar gətirilirdi.

Bir neçə mərhələdə həyata keçirilən sürgün prosesində növbəti, yəni üçüncü mərhələ isə məhbusların cəza düşərgələrinə gəlməsi ilə başlamış olurdu. Bu zaman insanlar müxtəlif kateqoriyalara görə qruplaşdırılaraq, fərqli barak və koloniyalarda yerləşdirilirdi.

Çətin şərtlər altında gedilən yol, işgəncəli düşərgələr və bütün bunların fonunda yaşamaq uğrunda mübarizə insan həyatına, mənəviyyatına, heysiyyətinə və psixologiyasına ağır zərbələr vurmuşdur.

Tarix boyu hər zaman qadın mövzusu və qadın problemləri bir çox elm sahəsinin tədqiqat mərkəzində olmuşdur. Psixologiya, sosiologiya və s. kimi sahələr bu problemləri müxtəlif aspektlərdən araşdırmışdır. Müxtəlif zaman kəsiklərində baş verən siyasi hadisələr səbəbindən qadınlar sürgün yerlərində əmək islah işlərinə məhkum edilmişlər.

## 2. Sürgün həyatı yaşamış ziyalı qadınlar

XX əsrin I yarısında bir çox ziyalı qadınlarımız müxtəlif səbəblər adı altında sürgün həyatı yaşamışlar. Onlardan Ümmügülsüm Sadıqzadə ilk sürgün olunmuş qadın olmuşdur. Dövrün mətbu orqanlarında milli ruhda yazılmış şeirləri ilə çıxış etmişdir.

"Ümmügülsüm Sadıqzadənin məhv olmuş yaradıcılığından çox az şeirləri günümüzə qədər gəlib çatıb. Onun 1915-ci ildə "Solğun çiçəklər" adlı ilk hekayəsi "Qurtu-

luş” jurnalında nəşr olunub və müsabiqədə ilk yerlərdən birini tutub. Sonra “İqbal”, “Yeni İqbal”, “Açıq söz”, “Dirilik”, “Azərbaycan” və digər jurnallarda şeirləri və hekayələri dərc olunur.

Ümmügülsüm Sadıqzadə 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına “Türk ordusuna”, “Ey türk oğlu”, “Əsgər anasına”, “Dərdli nəğmə”, “Yollarını bəklədim” və s. adlı şeirlər həsr edib. Onun “Hicran” və “Bayrağım enərkən” şeirləri isə 1920-ci ildə AXC-nin süqutu ilə bağlı yazılıb” (5).

1937-ci ildə həbs olunaraq Mordva Muxtar Respublikası ərazisində yerləşən Temlaq əmək islah düşərgəsinə göndərilmiş Ümmügülsüm Sadıqzadə 1945-ci ildə azad olunmuş, lakin qısa müddət sonra dünyasını dəyişmişdir.

Repressiya illərində Quba Qızlar Seminariyasının rəhbəri olmuş Sənubər Eyyubova da həyat yoldaşının həbsindən sonra “xalq düşməni”nin ailəsi kimi sürgün olunmuşdur. O, Qazaxıstan ərazisində yerləşən Aljir düşərgəsində 8 il sürgün həyatı yaşamışdır.

Oxşar həyatı yaşamış ziyalı qadınlardan olan Gülarə Qədirbəyova isə “Bir sarayın tarixi” adlı kitabı milli ruhlu element kimi tənqid olunmuş, eyni zamanda H.Cavid, Ə.Cavad ilə olan dostluq münasibətlərinə görə əks-inqilabçı kimi təqib edilməyə başlanmış və həbs olunaraq Sibirə sürgün edilmişdir.

### 3. Bədii ədəbiyyatda sürgün prosesi yaşamış qadın obrazları

Sürgün həyatı yaşamış qadınların acı taleləri bədii ədəbiyyatda müxtəlif poeziya və nəsr nümunələrində əks olunmuşdur. Şair və yazıçıların öz yaradıcılıqlarında bu obrazlar vasitəsilə sürgün prosesinin görünməyən tərəflərini və onların insan, xüsusilə də qadınların həyatına olan təsirlərini göstərmişlər.

Xalq şairi Rəsul Rza mərhum şair Mikayıl Müşfiqə həsr etdiyi və bir çox repressiya qurbanlarının adlarının xatırlandığı “Qızılgül olmayaydı” poemasını yazmışdır. R.Rza bu əsərində M. Müşfiqin həyat yoldaşı D.Axundzadənin obrazını yaratmışdır. Əsərdə yaradılmış bu obrazın simasında sürgün həyatı yaşamış bir çox ziyalı və ədibin xanımlarının ümumiləşmiş surəti əks olunmuşdur:

*Bir uşaq kimi kövrək*
*o bədbəxtin əlləri...*
*Tanıdınızmı? – dedin.*
*Tanıdım...*
*Bu, sən idin!*
*Onun, onun Dilbəri...* (1, s. 218)

Sürgün illərinin dəhşətli işgəncələri, zülümləri bədii dil vasitəsilə ifadə olunmuşdur. R.Rza “Qızılgül olmayaydı” poemasında bədii portretdən istifadə etməklə sürgünün insan taleyinə vurduğu zərbələrin poetik tablosunu çəkmişdir.

*Əynində nimdaş palto,*
*Başında bir nimdaş şal,*
*Nə ipəkdi, nə də yun.*
*Saçlar ağ-*
*illərlə bağlı qalıb,*
*şəfəqini itirmiş*
*adicə gümüş kimi.*
*Gözlər-cüt qara ulduz;*
*quyuya düşmüş kimi.* (1, s. 216)

Qadınların sürgün düşərgələrində yaşadığı işgəncələri əks etdirən digər bir əsər isə Tova Fridmanın "Auşvits qızı" romanıdır. Əsərdə müəllif öz uşaqlığında valideynlərindən ayrı düşərək Auşvits düşərgəsində yaşadıqlarını təsvir etmişdir. Belə ki, hələ 4 yaşında olan Tova ata və anasından ayrı barakda iki il sürgün həyatı yaşamışdır. Lakin daha sonra qaranlıq illər arxada qalmış və valideynlərinə qovuşa bilmişdir. Ömrünün ahıl çağlarında isə həmin düşərgəyə gələrək yaşadıqları əzabları yenidən xatırlamış və yazdığı əsər ilə bir çox oxucuya çatdırmışdır.

Krım türklərinin ədəbiyyatının nümayəndəsi olan Cengiz Dağçının "İxtiyar savaşçı" romanında təsvir olunan Mələk xanım və Gülbahar xanım obrazları sürgün həyatının dəhşətlərini yaşamış, eyni zamanda ailəsi, övladları üçün daim mübarizə aparmış qadın obrazlarıdır. Bundan əlavə, tanımadığı neçə-neçə uşağa mənəvi ana olmuşdur. Həyatının son anında da o uşaqlar üçün çalışmış, xatirələrini əbədiləşdirmişdir. Onunla eyni taleyi yaşayan Gülbahar xanım da doğma yurdundan ayrı sürgün yerində vətən həsrəti çəkmiş qadınların ümumiləşmiş surətidir.

**4. G.Yaxina "Züleyxa gözlərini açır" romanında qadınların sürgün problemi**

Sürgün proseslərinin fonunda qadın taleyinin əks olunduğu digər bir əsər isə G.Yaxinanın "Züleyxa gözlərini açır" romanıdır.

"Modern tatar ədəbiyyatının nümayəndəsi olan G.Yaxina "Züleyxa gözlərini açır", "Övladlarım", "Səmərqəndə qatar" kimi romanların müəllifidir. Yazıçının "Züleyxa gözlərini açır" romanı isə 2015-ci ildə çap edilmiş və sürgün, qadın taleyi, tarixi-siyasi, ictimai və sosial problemləri özündə əks etdirmişdir" (3, s. 188).

"...Bu əsər ədəbiyyatın başlıca məqsədinə – ürəyə toxunmaq keyfiyyətinə malikdir. Baş qəhrəman, qolçomaq təsərrüfatının ləğv edilməsi dövründə yaşamış kəndli tatar qadını Züleyxanın taleyindən bəhs edən bu hekayə son illərin müasir nəsr axınında nadir rast gəlinən dərinliyə, səhihliyə, ülviliyə və cazibədarlığa sahibdir" (3, s. 5).

Romanda bir-birindən fərqli xarakterlərdə yaradılmış olan qadın obrazlarının hər birinin taleyi məhz sürgün xəttində kəsişmiş olur. Belə ki, G.Yaxina "Züleyxa gözlərini açır" romanında sürgün düşərgələrində qadınların yaşadıqları məşəqqətlər Züleyxanın taleyinin fonunda təsvir olunmuşdur. Belə ki, çox erkən yaşda özündən on beş yaş böyük Murtaza ilə evləndirilən Züleyxa ilk sürgünü məhz bu zaman ailəsindən ayrılarkən yaşamışdır. Ailəsi tərəfindən hüquqsuz və müti şəkildə yetişdirilmiş bu obraz heç bir zaman ona zülm edən insanlara öz etirazını bildirməmişdir. Daha sonra işgəncələr və faciələrlə dolu ailə həyatı onu mənəvi cəhətdən yormuşdur. Həyat yoldaşının kobud, vəhşi münasibəti, zalım qaynanasının zülmü və bütün bunlarla bərabər dörd qız övladının (Şəmsiyyə, Firuzə, Səbidə və Xalidə) ölümü onu həm bir qadın, həm də ana kimi olduqca sarsıtmışdır.

Süjet xəttinin inkişafında, öldürülmüş qolçomaq ailəsi kimi uzaq Sibir ərazisində salınan düşərgəyə sürgün olunmuşdur. Bu, Züleyxanın yaşadığı ikinci sürgün idi. Bu zaman ömür boyu yaşadığı ərazidən heç bir yerə getməyən Züleyxa birdən-birə tanımadığı şəhərlərdən keçməklə Anqara çayı sahilində salınmış düşərgəyə gətirilmişdir. Onun həm yol boyunca, həm də sürgün illərində gördükləri və yaşadıqları dünyagörüşündə və həyata baxışında köklü dəyişikliklərə səbəb olmuşdur.

"Özünüzü sürgündə tapanda bir təəssürat bütün digərlərindən üstün olur. Bu təəssürat yeni və fərqli bir dünyada olmaq hissi və bu dünyanın başqalığı insanı az qala məğlub edir. Sürgün edilən şəxsi əcnəbi kimi görənlər təkcə başqaları deyil; o da özünü belə görür. O artıq bildiklərini təkrarlaya bilmir və köhnə bacarıqlarını bu tanış olmayan mühitə uyğunlaşdıra bilmir. Əvvəlki həyatında əldə etdiyi bacarıqlara əsaslanaraq, bu

yeni yerdə eyni şeyi istehsal edə bilməyəcəyi üçün onu tənhalıq gözləyir. Bu, sürgünlə müqayisədə yaratdığı uzaqlıq hissi ilə azalda bilməyən tənhalıqdır. Əksinə, bu məsafə onu həbs edir, onu narahat bir yöndən sapma hissi ilə əhatə edir. Sanki dünyanı danışmadan dərk etməyə imkan verən bacarıqlardan qopmuşuq. Məhdud seçimlər burulğanında çırpınır: Ya çox süni ictimai həyat yaşayacaq, ya da tamamilə şəxsi həyata çəkiləcək" (6).

Sürgün prosesinə daxil olan yeni həyatın qaydaları insan, xüsusilə də qadın psixologiyasına müxtəlif təzahür formalarında təsir edir. Tədqiqat mövzusu olan G.Yaxina "Züleyxa gözlərini açır" romanının baş qəhrəmanı olan Züleyxa da bu təsirlərə məruz qalır, lakin daima yaşamaq və övladı üçün mübarizə aparır.

Züleyxanın həyatında yeni dövrün başlanğıcı oğlu Yusifin dünyaya gəlməsi ilə açılmışdır. Artıq yenidən ana olan Züleyxa daha güclü xarakterə sahib bir şəkildə təsvir olunmuşdur. Belə ki, müti xarakterli qadın ana olduqdan sonra daha əzmkar və mübariz olaraq övladı üçün mübarizə aparmışdır.

Əsərin son hissəsində isə həyatda sahib olduğu tək ailəsi olan Yusifin gələcəyi üçün ondan ayrı qalmağa belə razılaşmışdır.

**Nəticə**

Yekun olaraq, G.Yaxina "Züleyxa gözlərini açır" romanında təsvir olunan sürgün mövzusu qadın taleyinin fonunda əks olunmuşdur. Belə ki, tarixinin ayrı-ayrı dövrlərində fərqli siyasi səbəblərdən bir çox qadın sürgün düşərgələrində cəza çəkməyə məhkum edilmişdir. Romanda da yeni iqtisadi sistemə etiraz edən qolçomaq Murtazanın öldürülməsindən sonra həyat yoldaşı Züleyxa sürgün olunmuşdur. Bu zaman isə onun acı dolu sürgün yolu başlamışdır. Əsərdə təsvir olunan bu həyatı isə real dövrdə çoxsaylı qadınlar yaşamışdır.

## ƏDƏBİYYAT


1. Rəsul R. Seçilmiş əsərləri, 5 cilddə, IV c., Bakı: Öndər nəşriyyatı, 2005, 336 s.
2. Tağıyeva A. Ədəbiyyatda sürgün mövzusu: hermenevtik yanaşma // Poetika.izm, 2024, №1, s.188-193.
3. Yaxina G. Züleyxa gözlərini açır. Bakı: Qanun, 2015, 423 s.
4. Özcan, K. (2022). Kırım Türklerinin Sürgünü ve Vatana Dönüş Mücadelesi 1944–1990. Düşünce Dünyasında Türkiz, 6(32), s. 51-88.
5. https://science.gov.az/az/news/open/30388.
6. https://t24.com.tr/k24/yazi/surgun-ve-schlemihl-kompleksi2168.



***Резюме***

***Айнур Тагиева***

***Изгнание в судьбе женщин***
***(По роману Г. Яхиной "Зулейха открывает глаза")***

В статье рассматривается понятие изгнания, его происхождение и причины. Тяготы и страдания изгнания также рассматривались через призму женской судьбы. Были изучены судьбы женщин-интеллектуалок, приговоренных к этому наказанию (Уммугулсум Садыгзаде, Санубар Эюбова и Гюлара Гадирбекова). Одновременно расследовались причины депортации этих женщин и сроки их отбывания в исправительно-трудовых лагерях.

Кроме того, примеры женщин, живших в изгнании, в художественной литературе были изучены на примере образов Дильбар Ахундзаде, жены покойного поэта М. Мушфига, в поэме Р. Рзы «Если бы не было розы», Мелек-ханум, Гульбахар-ханум и Айше, которая была удочерена, в гл. Роман Дагчи «Старый воин», а также «Девушка из Освиста» Т. Фридамана.

В то же время Яхина Г.Тема изгнания, раскрытая в романе «Зулейха открывает глаза», раскрывается на примере судеб женщин. Автор в художественном стиле описывает и первое духовное изгнание, пережитое героиней Зулейхой, и второе, то есть тот факт, что она была осуждена по реальным историческим и политическим причинам и жила в лагерях вдали от родного дома. В то же время тема первого изгнания, отраженная в себе, отражается как женская проблема. Таким образом, вовлечение женщин в ранние браки, исключение из системы образования и воспитание их без знания их прав являются одними из важнейших женских проблем, с которыми сталкивается человечество.

Художественно отражена жизнь главной героини романа Зулейхи до и во время изгнания. После тяжелой семейной жизни с жестокой свекровью и грубым мужем, процесс ссылки, полный пыток, оказал сильное влияние на мировоззрение и характер Зулейхан.

Также в статье, которая написана на тему изучения сущности и содержания процесса ссылки на фоне женских проблем, изучено влияние периода заключения в местах ссылки на психологию человека. Рассматриваемые здесь женские проблемы являются аспектами влияния процесса изгнания на жизнь женщин, их духовный и психологический мир.

**Ключевые слова:** *Ссылка, женский вопрос, Г.Яхина, "Зулейха открывает глаза"*

***Summary***

***Aynur Taghiyeva***

***Exile in the Fate of Women***
***(Based on the Novel "Zuleikha Opens Her Eyes" by G.Yakhina)***

The article examines the concept of exile, its origin and causes. Also, the hardships and sufferings of exile life are studied from the perspective of women's fate. The lives of intellectual women sentenced to this punishment (Ummugulsum Sadiqzadeh, Sanubar Eyyubova and Gulara Gadirbayova) are studied. At the same time, the reasons for these women's exile and the terms of their sentences in labor reform camps are studied.

In addition, examples of images of women who lived exile in fiction are studied based on the images of women described in the poem "Qizilgul Olayaydi" by R.Rza, the wife of the late poet M.Mushfig, Dilbar Akhundzadeh, in the novel "Ikhtiyar Savaşçı" by Ch.Daghchi, Melek Khanum, Gulbahar Khanum and Ayşe, who was adopted, and also in the works of T.Fridaman, "Aushvist gizi".

At the same time, the theme of exile described in the novel "Zuleikha Opens Her Eyes" by Yakhina was studied based on the fate of women. Also, the first moral exile experienced by the character of Zuleikha and the second, that is, the fact of exile in camps far from home, where she was convicted on the basis of real historical and political reasons, are described by the author in an artistic style. At the same time, the first exile theme reflected is reflected as a women's problem in itself. Thus, the attraction of women to early marriages and exclusion from education and raising them without knowing their rights are among the most important women's problems facing humanity.

The life of the main character of the novel, Zuleikha, before exile and during exile, has found its artistic reflection. After a painful family life with a cruel mother-in-law and a rude husband, the exile process full of torture has had a strong impact on Zuleikha's outlook on life and character.

Also, in the article written on the topic of studying the essence and content of the exile process against the background of women's problems, the effects of the period of punishment spent in exile places on human psychology have been studied. The women's problems examined here are aspects of the effects of the exile process on women's lives and their spiritual and psychological worlds.

**Key words:** *Exile, women's problem, G. Yakhina, "Zuleikha opens her eyes".*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.